**Mövlud Süleymanlı**
*Xalq yazıçısı*

# ORDUMUZ – GÜCÜMÜZ, QÜDRƏTİMİZ



Ordu anlayışı bir millət olaraq bütün mənasıyla bizim düşüncəmizdə həmişə yaşayıb, varlığımızda həmişə var olub; bu hiss, bu duyğu tərbiyəmizdə, inkişafımızda, sağlam böyüməyimizdə və gələcəyə hazır olmağımızda çox gərəkli işlər görüb, indi də görməkdədir... Azad olsaq da, olmasaq da, yaşadığımız minilliklər boyu ordunun mənasını dərindən anlamışıq; evlərimizdə yalnız övlad yox, əsgər böyütmüşük, şifahi ədəbiyyatımızda, xalq yaradıcılığımızda da bu hisslərin, duyğuların gözəl ifadələri var. Ona görə də deyə bilərik ki, ordu anlayışı xalqın ruhunda yaşayan and yerlərimiz kimi mənəvi dəyərlərimizdəndir. Müstəqilliyə gedən yol da bu dəyərlərdən keçir. Azadlıq da belə qazanılır... Biz bir millət kimi, xalq kimi həmişə bu duyğuların, bu düşüncənin içində olmuşuq. Ordu həyatını, əsgərlik xidmətini ömrümüzün müqəddəs borcu hesab etmişik, çünki yerdə torpağımızı, göydə bayrağımızı elə qorumuşuq... Elin orduya üz tutub yaratdığı və həmişə fəxrlə işlətdiyi ifadədi: "Yerdə torpağımızı, göydə bayrağımızı qoru, çünki ora Vətənimizdir!"

Ordu xalq gücünün təzahür formasıdır. Xalqın gücü əgər düzgün idarə olunarsa, dəyərləndirilərsə, inkişafı bir də ordusuyla ölçülər... Xalqın özü deyir:

...Ordubada...
Yol gedər Ordubada.
Ağıllı Sərkər istər,
Verməsin ordu bada.

Sərkərdəni də xalq yetirir, yəni ordu yaranıbsa, sərkərdəsi də yaranacaq. Çünki ordu xalqla bir yerdədi. Xalqın nəzarəti, diqqəti var üzərində, nigarançılığı var həm də. Ona görə də hər bir ordu mənsub olduğu, yəni içindən çıxdığı xalqa bənzəyər, ordu xalq gücünün bir, bütöv əl-ələ, çiyin-çiyinə olduğu yerdi,

Xalqın narahatçılığı da ona görədi: "...ağıllı Sərkər istər, verməsin ordu bada." Ordunu sevmək gec-tez xalq sevgisinə gətirib çıxaracaq. Biz bunu ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı, Prezidentimiz İlham Əliyevin timsalında gördük...

> *"Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini təmin edir, orduya daha da çox güc verir. Xalqın da öz ordusuna daha çox etibar etməsinə əsas verir".*
>
> **HEYDƏR ƏLİYEV**

"Lələ" xalq arasında böyük deməkdi, "sərkərdə" mənasında da düşünmək olar. "Lələtəpə" qələbəsinə də qeyd etdiyim bu möhtəşəm birlik, bərabərlik duyğularının gücüylə gəlib çıxdıq. Bununla belə, hələ çox qələbələr yolumuzu gözləyir... Ordumuzla bağlı minilliklər boyu ruhumuzla daşıdığımız bu hiss, bu duyğu bizi həmişə güclü saxlayıb, işğaldan, məhv olmaqdan, ölümlərdən qoruyub. Ona görə də yüzilliklərlə igidlərini – sərkərdələrini düşüncələrində yaşadıb, bu günəcən gətirib, sabahlara hazır olub, oğul deyib tərənnüm edib, adına nəğmələr oxuyub. "Koroğlu" kimi, "Dədə Qorqud" kimi yüzlərlə qəhrəmanlıq dastanları yaradıb, bizi bu gün təntənəsini yaşadığımız müstəqilliyimizə qovuşdurub. Biz bu gün ordumuzla bir yerdə ucalara qalxıb boyumuzu göstərə bilirik! Bizi görmək istəməyənlər belə, artıq bizi görməyə başlayıb!

Qələmlə, Silahla...: (Azərbaycan Ordusu - 100).- 2019.- S. 43-44.